Ədalət.- 2020.- 7 mart.- S.12

*Sona VƏLİYEVA*

# *SƏNSİZ KEÇƏN HƏR GÜNÜMƏ*

**Dünya yaman dar olarmış,**
**Nə göy göymüş, nə yer varmış.**
**Ürəyim köz-köz olarmış,**
**Sənsiz keçən hər günümdə.**

**Dözümüm sınıq bir bənddir,**
**Vüsalıma yol kəmənddir.**
**Göz yaşım bir haya bənddir,**
**Sənsiz keçən hər günümdə.**

**Buludam, göydən ayrıyam,**
**Odam, ocaqdan ayrıyam,**
**Qərib dünya qatarıyam,**
**Sənsiz keçən hər günümdə.**

**Gülüşümə hicran kilid,**
**Xatirələr bölük-bölük,**
**Gəl dünyamı özün kirit,**
**Sənsiz keçən hər günümdə.**

# *SARI ÇİÇƏK*

***(Sarı çiçəklər önündə həmişə donub qalıram)***

**Qəlbimdə uyuyan ruhun rəngidir,**
**İçimdə boylanan söz çələngidir.**
**Məni hüzuruna sevgi gətirdi,**
**Solan sevdaların sarı çiçəyi.**

**Əlacsız sevdadır qəlbimdə qalıb,**
**Sarıtel gözəldir xəyala dalıb.**
**Sevgisi qürbətdə gözü saralıb,**
**Solan sevdaların sarı çiçəyi.**

**Bir sarı gəlindi bəxti dağlanıb,**
**Bərəsi kəsilib bəndi bağlanıb.**
**Həsrətin üstünə dərd cilalanıb,**
**Solan sevdaların sarı çiçəyi.**

**Sevda yolçusuyuq mənzilə yetən,**
**Sevgisin mələklər göydən gətirən.**
**İçimdə göyərən, içimdə bitən,**
**Solan sevdaların sarı çiçəyi.**